**Əlavə 1.22**

**Təkrar attestasiya üçün Ali Attestasiya Komissiyasına təqdim edilən sənədlərin**

**SİYAHISI**

1. İş yerindən qoşma məktub və ya iddiaçının şəxsi ərizəsi;

2.İş yerindən təsdiq edilmiş, üzərində fotoşəkil olan kadrların şəxsi uçot vərəqi -1 nüsxə;

3.İddiaçının iş yerindən verilmiş, təşkilatın rəhbəri tərəfindən imzalanmış, tarix qoyulub, gerbli möhürlə təsdiq olunmuş xasiyyətnamə -1 nüsxə;

4. Elmi dərəcə verilməsi haqqında arayış-2 nüsxə;

5. Xarici dövlətlərdə verilmiş elmi dərəcə diplomunun və ya elmi ad haqqında attestatın müvafiq qaydada təsdiq olunmuş surətləri;

6. Fəlsəfə doktoru elmi dərəcəsi diplomunun təkrar attestasiyası üçün ali təhsil haqqında diplomun (xaricdə, o cümlədən, MDB ölkələrində təhsil almış şəxslər üçün isə əlavə olaraq, Azərbaycan Respublikasının Təhsil Nazirliyindən verilmiş ekvivalentlik haqqında şəhadətnamənin) təsdiq edilmiş surəti -1 nüsxə;

Elmlər doktoru elmi dərəcəsi diplomunun təkrar attestasiyası üçün fəlsəfə doktoru diplomunun (elmi dərəcəsini xaricdə, o cümlədən, MDB ölkələrində almış şəxslər üçün isə əlavə olaraq, Komissiya tərəfindən verilmiş ekvivalentlik haqqında sənədin-diplomun) təsdiq edilmiş surəti -1 nüsxə;

7.Dissertasiya mövzusunun və elmi rəhbərin (elmi məsləhətçinin) təsdiq olunması haqqında protokoldan çıxarış – 1 nüsxə;

8. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün uyğun doktorluq imtahanlarının verilməsi haqqında vəsiqənin təsdiq edilmiş surəti– 1 nüsxə;

9. Dissertasiya şurası iclasının sədri və elmi katibi tərəfindən imzalanmış stenoqram. Stenoqrama elmi rəhbərin (məsləhətçinin), rəsmi opponentlərin, aparıcı təşkilatın və avtoreferata verilən rəylərin surətləri əlavə olunur.

10. Dissertasiya işinin yerinə yetirildiyi və ya iddiaçının təhkim olunduğu təşkilatın rəyi və rəyin qəbul olunduğu iclasın protokolu - 1 nüsxə;

Təşkilatın rəyi kafedra (laboratoriya, bölmə, şöbə) iclasının və ya seminarının protokolundan çıxarış şəkilində tərtib edilir, təşkilatın rəhbəri tərəfindən təsdiq olunur və ona təşkilatın gerbli möhürü vurulur.

Protokol iclasın sədri və katibi tərəfindən imzalanır, onların imzası təşkilatın elmi katibi tərəfindən müvafiq qaydada təsdiq edilir.

11. Dissertasiya mövzusuna dair dərc olunmuş elmi işlərin siyahısı (Əlavə 1.18).

12.Dissertasiya mövzusu üzrə dərc olunmuş elmi əsərlərin surətləri (monoqrafiya özü əlavə olunur);

13.Dissertasiya və 4 nüsxə avtoreferat. Avtoreferat dissertasiyanın əsas məzmununu Azərbaycan dilində geniş əks etdirməli və onun həcmi dissertasiyanın ümumi həcminin (ədəbiyyat siyahısı istisna olmaqla) 30%-dən az olmamalıdır.

14.Qeydiyyat-uçot vərəqi;
15.Şəxsiyyət vəsiqəsinin surəti.

Qeyd:

Bu siyahıda 7-10 bəndlərdə tələb olunan sənədlər müxtəlif xarici ölkələrdə elmi adın və ya elmi dərəcənin verilməsi proseduruna uyğun tənzimlənə bilər.